# Yeniyetmələrin mənəvi tərbiyəsinin psixoloji xüsusiyyətləri

**Nübar Əmirli**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** nubemir@gmail.ru

**Rəyçilər:** psixol.ü.f.d., L.M. Qurbanova,
psixol.ü.f.d., dos. M.C. İsmayılova

**Açar sözlər:** mənəvi tərbiyə, yeniyetmələrdə mənəvi tərbiyə, mənəvi mədəniyyət, yeniyetmələrdə ailə tərbiyəsi.

**Ключевые слова:** нравственное воспитание, нравственное воспитание подростков, нравственная культура, семейное воспитание подростков.

**Key words:** moral education, moral education in adolescents, spititual culture, family education in teenagers.

Yeniyetməlik dövrünə uşaq kimi girən fərdin bu dövrdən yeniyetmə olaraq çıxması gözlənilir. Əvvəldən həmişə uşaq olaraq xarakterizə edilərkən indi yetkin olaraq qəbul ediləcək. Bu da onu göstərir ki, keçid dövrü çox dava-dalaşlı keçəcək. Valideynlərin vəzifəsi isə yeniyetmənin bu səylərini anlayıb onlara dəstək olmaq və bu dövrün ən az ziyanla keçməsinə kömək etməkdir.

Tərbiyə - insanın şəxsiyyətinin inkişafına, onun müasir mədəni dünyagörüşünün formalaşmasına və müəyyən baxışların yaranmasına yönəlmiş məqsədyönlü professional bir fəaliyyətdir. Tərbiyə təlim-tədris müəssisələrində xüsusi təlim almış mütəxəssislər tərəfindən şəxsiyyətin formalaşması və yaranması məqsədilə hazırlanmış prosesdir.

Mənəvi tərbiyə isə insanın harmonik inkişafını təmin edən həyati dəyərləndirməni şəxsdə formalaşdırmaqdır. Mənəvi tərbiyə insanın işlərinə və fikirlərinə ali məqsəd verən qürur, səmimiyyət və məsuliyyət hisslərini tərbiyələndirir.

Mənəvi tərbiyə ailə tərbiyəsinin tərkib hissəsidir. Məhz bu gün müasir ailəmizdə elmi-mədəni dünyagörüşünə malik olan, bəşəri və milli mənəvi dəyərləri mənimsəyən və hər zaman hər yerdə yüksək mədəni davranış nümunəsi etdirən uşaqlar tərbiyə olunmalıdır. Onlar vətənini, xalqını və insanlarını dərin məhəbbətlə sevsin, xalqın mənəvi dilinə, dininə, bayrağına, himninə, gerbinə, adət-ənənələrinə hörmət etsin və onlara həmişə sadiq olsun.

Mənəvi mədəniyyət mənəvi tərbiyənin nəticəsi olaraq mütəmadi olaraq inkişaf prosesində olmalıdır. Beləki, mənəvi mədəniyyət daha çox əməldir, fəaliyyətdir. Bu prosesdə də əsas vəzifə ailənin üzərinə düşür.

Mənəvi tərbiyə çoxsahəli proses olmaqla yanaşı həmdə mürəkkəb prosesdir. Mənəvi tərbiyə bir neçə xüsusiyyətlərdən asılıdır. Onlara aşağıdakıları aid etmək olar:

1) yaş xüsusiyyətləri;
2) fərdi xüsusiyyətlər;
3) milli xüsusiyyətlər.

Bu xüsusiyyətlər bir-biri ilə kompleks vəhdətdədir. Beləliklə, burada yaşlılar, valideynlər, yaşıdlar, ətraf mühit də əhəmiyyətli olaraq öz təsirini göstərir. İlk növbədə uşaq və yeniyetmələrin mənəvi tərbiyəsi onların valideynlərlə qarşılıqlı münasibətlərindən asılıdır. Yeniyetməlik dövründə yeniyetmə şəxsiyyətinin inkişafında başlıca istiqamət tutan valideynin özünün də mövqeyi onun hansı sosial qrupa daxil olmadan, yeniyetmənin qız və ya oğlan olmasından çox asılıdır.

Mənəvi tərbiyə həmçinin milli xüsusiyyətlərlə də birbaşa sıx bağlıdır. Başqa sözlə desək, hər bir xalq öz övladlarında özünə mənsub olan keyfiyyətləri formalaşdırmağa çalışır.

Qeyd edək ki, yeniyetməlik yaş dövrü digər yaş dövrlərindən əsaslı şəkildə fərqlənir. Bunun əsas başlıca səbəbi isə "cinsi fərqlərin" tamamilə inkişafı ilə bağlıdır. Yeniyetməlik yaş dövründə oğlan və qızlarda anatomik-fizioloji, həmdə psixoloji cəhətdən "öz yerlərini tutmuş" olurlar. Buda həmin dövrdə yeniyetmələrin "böhran" keçirməsi ilə əlaqəlidir.

Yeniyetmələrdə özünüqiymətləndirmə ilə yanaşı özünü başqaları ilə müqayisə etmə meylidə əmələ gəlir. Nəticədə isə yeniyetmə özünün "mən"ini bir növ kəşf edir. Mənlik şüurunun formalaşması da özünüdərketmədən fərqli deyildir.

Yeniyetmələrin mənəvi tərbiyəsi kor-koranə, öz-özünə deyil, özünütərbiyə, özünüdərk, sistemli tərbiyə işi, özünün güclü və zəif tərəflərin dərk etmək yolu ilə yaranır, formalaşır. Yeniyetməlik yaş dövründə şagird münasibətlər sisteminə daha fəal şəkildə daxil olur. Həmçinin təlim fəaliyyəti yeniyetmənin şüurlu davranış və fəaliyyətinə təsir edir. Müəllim və valideynlərlə, yaşlıları və yoldaşları ilə ünsiyyət yeniyetmələrin mənəvi tərbiyəsinə güclü təsir edən amillərdəndir.

Mənəvi tərbiyənin mühüm vəzifələrindən biri də yeniyetmələrdə şərəf və ləyaqət hisslərinin formalaşdırılmasıdır. Beləliklə, bu istiqamətdə işlər ilk növbədə erkən yaşlarda qızlarla aparılması və daha sonra yeniyetmə yaş dövründə daha da qüvvətləndirilməsi vacibdir. Qeyd edək ki, şərəf və ləyaqət hissi insanın mənəvi simasını, daxili "mən"ini təsdiq edən əsas əxlaqi dəyər və əxlaqi meyarlardır. Belə deyə bilərik ki, "şərəf" anlayışı mənəvi anlayış olub insanın davranış və fəaliyyətinin müəyyən xalq cəmiyyət tərəfindən bəyənilməsi, təsdiqlənməsi və qiymətləndirməsidir. Yeniyetmələrdə cəmiyyətimiz üçün qiymətli mənəvi dəyər sayılan şərəf və ləyaqət hisslərinin inkişaf etdirilməsi cəmiyyətimiz üçün vacibdir. Şərəf və ləyaqət hisslərinin tərbiyə olunmasında əsas aktuallıq mənəvi amillərin rolunun artmasıdır. Yeniyetmənin öz şəxsi xüsusiyyətlərinə maraq yaranması ilə özünü qiymətləndirməsi şərəf və ləyaqət hissinin formalaşmasına əsas təsir göstərir.

Yeniyetmələrin mənəvi tərbiyəsində təlim də əsas yer tutur. Belə ki, təlim fəaliyyətinin mürəkkəbləşməsi, fənlərinin sayının artması deyil, müəllimlərin dərs üslubu həmçinin şagirdlərə münasibəti ilə bağlıdır. Yeniyetmələrin təlim prosesində tərbiyənin mahiyyəti məktəblinin elmlərin əsaslarına şüurlu şəkildə yiyələnməsi ilə bağlıdır. Bununla belə təlim fəaliyyətində tərbiyənin digər mahiyyəti idrak qabiliyyətlərinin və maraqlarının inkişaf etdirilməsindən ibarətdir. Bunlar şagirdlərin mənəvi-iradi keyfiyyətlərini, həyata baxışlarını və dünyagörüşünü, cəmiyyətdə baş verən norma və qaydaların mənimsənilməsinə kömək edir və insan idrakının öyrənilmələri fəaliyyət və təlimlə qarşılıqlı əlaqəsini təmin edir.

Həmçinin yeniyetmələrin mənəvi tərbiyəsinin sıx bağlı olduğu sahələrdən biri də əmək tərbiyəsidir. Əmək - cəmiyyətin və fərdin tələbatlarını ödəmək üçün maddi və qeyri-maddi, məqsədyönlü fəaliyyət sahəsidir. Əmək tərbiyəsi, indiki dövrdə xeyli dəyişilmiş, yeni məzmun kəsb etmişdir. Buda təkcə yeniyetmələrdə deyil, yaşlı adamlarda da özünü göstərir. Bir çox valideynlər yeniyetmələri əməkdən ümumiyyətlə azad etmək istəyirlər. Onlar elə hesab edirlər ki, yeniyetmələr hələ uşaqdır, əməklə məşğul olmağa kifayət qədər vaxtları var. Bir qrup valideyndə var ki, uşağını yəni yeniyetməni təlimdən ayırır əməyə (işə) cəlb edirlər. Lakin bu iki halda səhvdir. Bu hallar yeniyetmənin mənəviyyatına təsir edir hətta yeniyetmənin mənəviyyatını pozur.

Qeyd etmək lazımdır ki, ailədə böyüməkdə olan yeniyetmənin tərbiyə prosesində ailədə valideynlərin istifadə etdiyi tərbiyə üsulları belə, ailə münasibətlərinin tərbiyə səmərəliliyini əvəz etmir. Ailə münasibətlərinin rolunun nəzərə alınmaması yeniyetmənin tərbiyəsində yol verilən nöqsanlar içərisində xüsusi yer tutur. Bəzi ailələr var ki, onlara verilən mənəvi tələblərlə valideynlərin öz əməlləri heç də uyğun gəlmir. Valideynlərin ailə təəssürratlarında

eyni dərəcədə iştirak etməməsi, bu əsasda yaranan söz-söhbətin və münaqişələrin uşaqlarda kişilik və qadınlıq haqqında təsəvvürlərin formalaşmasına mənfi təsir göstərir. Uşaqların qarşılıqlı münasibətlər sistemini çətinləşdirən əsas proseslərdən biri də tərbiyəvi təsirlərin vəhdətdə olmasıdır.

Yeniyetmələrin ailə tərbiyəsində yol verilən əsas nöqsanlardan biridə onların ailə münasibətlərində rolunun nəzərə alınmamasıdır. Yəni valideynin uşağa verdiyi mənəvi tələblə əməlinə uyğun gəlmir. Ailədə valideynlərarası münaqişə kişilik və qadınlıq haqqındakı təsəvvürlər də mənfi təsir göstərir. Bütün bu tərbiyəvi təsirlərin bir-biri ilə əlaqəli olmaması yeniyetmələrin münasibətlər sisteminin inkişafına mənfi təsir göstərir.

Bütün bunlarla yanaşı valideynlər uşaqların qabiliyyətini üzə çıxarmalıdır. Çox vaxt valideynlər yeniyetmələrin öz maraq və meyllərinə uyğun olmayan sahəyə yönəldirlər. Burda onların həmin peşədəki müvəffəqiyyət səviyyəsinin aşağı olmasına gətirib çıxarır.

Bəzən valideynlərin yeniyetmələrlə söhbəti güzəran söhbətinə çevrildiyi üçün bu yeniyetmələrdə ünsiyyət problemi yaradır. Buna görə də, valideynlər çalışmalıdır ki, yeniyetmələrin dünyagörüşünü artıran onların şəxsiyyət kimi formalaşmasına səbəb olan söhbətlər etsinlər. Valideynlər yeniyetmələrlə daha çox vaxt keçirsə bu onların həm ünsiyyət qurmasına, həm valideynlərlə yaxın olmasına, pis əməllərdən uzaq olmasına səbəb olur. Həmçinin valideynlər yeniyetmələrin asudə vaxtının, gün rejiminin düzgün nəzarət etməlidir və onların boş vaxtlarında maraq və meyllərinə uyğun işlərə yönəltməlidir. Çünki yeniyetmələr elə bir yaş dövründədir ki, onlar nə qədər boş qalarsa bir o qədər mənfi işlərə yönələr. Bundan başqa, həmçinin yeniyetmənin kollektivdə nüfuzu aşağı olması da onun pis işlərə meyl göstərməsinə səbəb olur. Çünki bu yaşda əsas əlamət kollektivdə uşağın oynadığı roldur. Həmçinin bu yaşda yeniyetmələr valideyndən çox yaşıdlarıyla vaxt keçirməyi xoşlayırlar. Valideynlər yaşlı uşaqlarla tək valideyn kimi deyil, həm də dost kimi ona yaxın olmalıdır ki, o, öz problemlərini dostları ilə yox valideynlərlə bölüşsün.

Yeniyetmələrin mənəvi tərbiyəsində məktəbində rolu böyükdür. Burada yeniyetmənin müəllimləri ilə, psixoloqla, sinif yoldaşları ilə qarşılıqlı münasibəti onun şəxsiyyət kimi formalaşmasında böyük rol oynayır. Çünki insanın şəxsiyyət kimi formalaşmasında mühitin, qarşılıqlı münasibətlərin rolunu qeyd etməmək mümkün deyil. Belə deyə bilərik ki, mənəvi tərbiyə şagirdlərin şəxsiyyətinin formalaşmasında böyük rol oynayır. Əsas burada ümumbəşəri dəyərlərdən və milli zəmindən istifadə edilməlidir. Uşaqların yeniyetməlik yaşı dövründə onların real həyatı, iqtisadi durumu mənəvi tərbiyə zamanı nəzərə alınmalıdır və bunlar bir-biri ilə vəhdət təşkil etməlidir.

Qeyd edək ki, məktəbdə həyata keçirilən mənəvi tərbiyə sahələrinə aşağıdakılar aiddir:

1. Şagirdlərdə ilk növbədə mənəvi şüuru formalaşdırmaq: Mənəvi şüuru formalaşdırmaq dedik də isə pisliyi, xeyirxahlıq və bədxahlıq, yaxşını pisdən ayrıd etməyi bacarmaq, mənəvi şüur, milli mənlik və s. hisslərini formalaşdırmaq nəzərdə tutulur.

2. Şagirdlərdə mənəvi hisslər yaratmaq: Mənəvi hisslər deyərkən isə, vicdan, namus, borc, inam, məsuliyyət, vətənpərvərlik və s. hissləri əsas götürülür.

3. Şagirdlərdə mənəvi mövqe formalaşdırmaq: yəni çətin məqamlarda insanlara hörmət, yardım göstərmək və s. hissləri.

4. Şagirdlərdə mənəvi sima formalaşdırmaq: Mənəvi sima deyərkən kinli olmaq, tolerantlıq, dəqiqlik cəsurluq, mədəniyyət və nəzakətlilik və s. nəzərdə tutulur.

5. Şagirdlərdə mənəvi davranış formalaşdırmaq: Vətənə, xalqa xidmət etməyə hazır olmaq, mənəvi davranış nümunələrindən qərar çıxarmaq, insanlarla xeyirxah münasibətdə olmaq və s.

Qeyd edək ki, şagirdlərin mənəvi tərbiyəsi və cinsi tərbiyəsinin bir sahəsi onların əxlaq

tərbiyəsi nəzəriyyələrində formalaşmış və inkişaf etmişdir. Yeniyetmələrin ailə həyatına hazırlaşmasının əsasını cinsi tərbiyə təşkil edir. Cinsi tərbiyə - hər hansı məlumatın, biliyin, anlayışın oğlan və qızlara verilməsi demək deyil, onlarda ilk növbədə ağıllı, gözəl qarşılıqlı münasibətləri tərbiyə etməkdən ibarətdir. Yeniyetməlik dövründə uşaqların cinslərarası münasibətlər zamanı mənəvi mədəniyyətə, həmçinin əxlaq normaları əsasında inkişaf etdirilməsi cinsi tərbiyənin əsasını təşkil edir. Yeniyetməlik elə bir yaş dövrüdür ki, onlarda sinir sistemi çox kövrək olur və onlara edilən hər hansı kobudluğa, hörmətsizliyə dözə bilmirlər, tez öz kövrəkliklərini bildirirlər. Belə ki, valideyndən, yaşlılardan yeniyetmə qız və oğlanların həyatının müstəqilliyini qəbul edib, onlarla mədəni şəkildə və səbrlə rəftar etmək lazımdır. Bu isə yeniyetmələrdə böyüklərə qarşı inam hissinin yaranmasına gətirib çıxarır. Onlar valideynlərlə, yaşlılarla hər hansı məsələ haqqında məsləhətləşmək, hətta sual vermək istəyi yaranır. Yeniyetməni danlayıb tənbeh etmək üçün cinsi tərbiyəni kiçik qayğıkeşə çevirmək heç də düzgün deyil. Bu halı yeniyetmədə elə aparmaq lazımdır ki, yeniyetmə özü düzgün qərar verə bilsin.

Əsasən bu dövrdə valideynləri həyəcanlandıran əsas səbəblərdən biri də oğlanların qızlarla dostluğudur. Hər kəsə məlumdur ki, məhz ilk sevgi yeniyetməlik yaşlarında başlanır və valideynlər də bu dövrdə çətinlik qarşısında qalırlar, onlar bilmirlər ki, uşaqlarının bu təbii xoşbəxtliyini qorusunlar ya da onların şüuruna arxalanıb hər bir şeyi öz ixtiyarlarına buraxsınlar. Əgər valideyn uşaqların yeniyetməlik yaşına qədər onların cinsi tərbiyəsi ilə məşğul olmayıbsa, bu zaman yeniyetməlik yaş dövründə yeniyetmənin özünü necə aparacağını əvvəlcədən demək mümkün olmayacaq. Yeniyetmələrdə psixi travmalar, pis əhval-ruhiyyələrin iz buraxması məhz onlarda cinsi inkişaf zamanı yaranan pozuntularla birbaşa əlaqəlidir. Yeniyetmələr müəyyən çətin vəziyyətə düşdükdə bir-birilə məsləhətləşməli, daha ağır hallar baş verdik də isə həyat təcrübəsi olan valideynlərindən, yaşlılardan məsləhət almaq üçün müraciət edə bilərlər.

**Məqalənin aktuallığı.** Mənəvi tərbiyə dedikdə yeniyetmənin hər hansı bir işində, fikirlərində qürur, səmimiyyət və s. hisslərinin tərbiyə olunması nəzərdə tutulur. Yeniyetmələrin mənəvi tərbiyəsi ailə tərbiyəsindən başlanır. Yeniyetmələrin mənəvi tərbiyəsi ailədən başlasa da onlarda vətənpərvərlik hissləri, vətənin himninə, bayrağına, gerbinə hörmətlə yanaşma və s. hisslər təlim zamanı formalaşır və onların gələcək həyatında reallaşır. Müasir dövrdə bu hisslərin formalaşması da həm müəllim, həm valideyn yeniyetmənin həyatında xüsusi rol oynayır. Valideynin yeniyetmələrlə keçirdiyi vaxt, yeniyetmənin mənəvi tərbiyəsində mühüm rol oynayır. Belə ki, valideynlər yeniyetmələrlə ünsiyyət qurduqda onlarla güzəran söhbətləri yox daha çox dünyagörüşü, adət-ənənələr və s. mövzularda söhbət aparması yeniyetmələrin mənəvi tərbiyəsini formalaşdırır. Məktəb şəraitin də isə müəllimlər yeniyetmələrdə vətənpərvərlik hisslərini, milli-mədəni dəyərlərimizi və s. hissləri formalaşdırmağı çalışmalıdır. Bu xüsusiyyətlərin formalaşması, həyata keçirilməsi valideyn və müəllimlərin yeniyetmələrlə keçirdiyi işin vəhdətdə olmasını əsas götürür.

**Məqalənin elmi yeniliyi.** Yeniyetməlik dövrü uşaqlıqdan yetkinliyə doğru bir keçid dövrü olaraq qəbul edilir. Buna görə də yeniyetməlik dövrünü bir xaos - üsyan dövrü olaraq da adlandıra bilərik. Bu dövrün özü də ətrafında bir döyüş yaratmağa hər zaman hazır olacaq. Bu döyüşün məqsədi məhz yetkin olmaqdır.

Yeniyetməlik dövrünə uşaq kimi girən fərdin bu dövrdən yeniyetmə olaraq çıxması gözlənilir. Əvvəldən həmişə uşaq olaraq xarakterizə edilərkən indi yetkin olaraq qəbul ediləcək. Bu da onu göstərir ki, keçid dövrü çox dava-dalaşlı keçəcək. Valideynlərin vəzifəsi isə yeniyetmənin bu səylərini anlayıb onlara dəstək olmaq və bu dövrün ən az ziyanla

keçməsinə kömək etməkdir. Məqalənin elmi yeniliyi də məhz qeyd etdiyimiz bu keçid dövrünün xarakterik cəhətlərini göstərməkdən ibarətdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin tələbə və magistrantları istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Bakı, 2009.
2. Qəribəli Q.Ə. Yeniyetmələrlə aparılan psixoloji işin xarakteristikası. Bakı, Mütərcim, 2013.
3. Əliyeva G.B. Yeniyetmələrin mənəvi tərbiyəsində cinsi xüsusiyyətlərin nəzərə alınmasının psixoloji əsasları: Psix.elm.nam. ...dis.avtoref. Bakı, 1996.

**Н. Амирли**

## Психологические особенности нравственного воспитания подростков

## Резюме

Нравственное воспитание подростков формируется не самим собой, а путём самовоспитания, самосознания, систематического воспитания и воспринимая свои мощные и слабые стороны. Одной из основных тенденций в области нравственного воспитания является формирование чувства чести и достоинства. Также одна из областей которое связано нравственное воспитание это трудовое воспитание. В области нравственного воспитания подростков роль школы также большой. Здесь отношение подростка со своими учителями, одноклассниками, психологом играет большую роль в формировании его как личности.

Важно отметить, что одна из областей нравственного и полового воспитания школьников формируется и развивается в теориях аморального воспитания.

**N. Amirli**

## Psychological features os moral education in adolescents.

## Summary

The moral education of adolescents is formed and formulated by blindly self-centered, self-discipline, systematic education understanding of its strengths and weaknesses. One of the important duties of moral education is to create the feelings of honor and dignity in adolescents. Also, one of the fields where the moral education of adolescents is closely related is labor education. The role of the school in the spiritual upbringing of teenagers is also great. Here, relationships with teachers, psychologists and classmates play a big role in shaping it as a personality.

It should be noted that a field of moral education and sexual education of pupils has been shaped and developed in their moral education theories.

**Redaksiyaya daxil olub:** 08.12.2017